# QANUN

№ 07 (381) / 2026

HÜQUQ NƏZƏRİYYƏSİ
**İsmayılov Ayxan Rəhim oğlu**
DÖVLƏTİN HÜQUQ SUBYEKTLİYİNİN XÜSUSİYYƏTİ ..... 3

BEYNƏLXALQ HÜQUQ
**Гасымова Хаджар Адил гызы**
**Алиев Вюсал Этибар оглу**
РОССИЙСКО-УКРАИНСКАЯ ВОЙНА И МЕЖДУНАРОДНОЕ ПРАВО ..... 11

**Abberin Nüşabə Ramiz qızı**
BEYNƏLXALQ HÜQUQUN ÜMUMTANINMIŞ PRİNSİPLƏRİ XÜSUSİ ŞƏXSLƏRİN MÜLKİYYƏT HÜQUQUNUN MƏHDUDLAŞDIRILMASININ (BEYNƏLXALQ SANKSİYALARIN TƏTBİQİNİN) ÜMUMİ ƏSASI KİMİ ..... 21

**Bəşirli Orxan Hafiz oğlu**
BEYNƏLXALQ ARBİTRAJ AZƏRBAYCAN RESPUBLİKASI VƏ XARİCİ İNVESTORLAR ARASINDA İNVESTİSİYA FƏALİYYƏTİ İLƏ ƏLAQƏDAR MÜBAHİSƏLƏRİN HƏLLİ ÜSULU KİMİ ..... 31

**Dere Yasin**
**Gadimov Vugar Anar**
ENFORCEMENT OF SENTENCES OF THE SPECIAL TRIBUNAL FOR THE CRIME OF AGGRESSION AGAINST UKRAINE: INTERNATIONAL LEGAL FOUNDATIONS ..... 37

KONSTİTUSİYA HÜQUQU
**Cəbi Gülşən Zabit qızı**
SOSİAL DÖVLƏTDƏ HÜQUQ VƏ AZADLIQLARIN MÜDAFİƏSİ MEXANİZMLƏRİ HAQQINDA ..... 54

**Babayeva Parvana Bayram**
THE CONCEPT, CONTENT AND CONSTITUTIONAL-LEGAL CHARACTERISTICS OF THE RIGHT TO PERSONAL INVIOLABILITY ..... 57

**Ağamalıyev Ümman İlqar oğlu**
AZƏRBAYCAN RESPUBLİKASINDA RƏQƏMSAL DÖVLƏT İDARƏETMƏSİNİN KONSTİTUSİON-HÜQUQİ MODELİ VƏ İNSTİTUSİONAL MEXANİZMLƏRİ ..... 64

İNSAN HÜQUQLARI
**Rəhimova Mələkxanım Seyfulla qızı**
LAYİQLİ HƏYAT HÜQUQUNUN DEFİNİSİYASINA DAİR YANAŞMALARIN TƏHLİLİ ..... 75

İNZİBATİ HÜQUQ
**Cəmilova Könül Bəxtiyar qızı**
ƏTRAF MÜHİTƏ TƏSİRİN QİYMƏTLƏNDİRİLMƏSİNİN İNZİBATİ HÜQUQİ STATUSU ..... 80

İNZİBATİ PROSES
**Mammadli Lala Firdovsi**
CASSATION REVIEW OF CLAIMS CONCERNING GENERAL ACTIONS FOR PERFORMANCE IN ADMINISTRATIVE PROCEEDINGS ..... 84

MÜLKİ HÜQUQ
**Yusifov Shukur Mahammad**
INHERITANCE BY LAW IN THE LEGISLATION OF THE REPUBLIC OF AZERBAIJAN AND THE REPUBLIC OF MOLDOVA ..... 93

**Zeynallı Nihat Yusasif**
PROFIT OF THE COOPERATIVE AND ITS DISTRIBUTION ..... 101

TORPAQ HÜQUQU
**Qasımov Alış Məmiş oğlu**
**Cəfərov Zahid İsa oğlu**
**Əsədov Anar Əlibala oğlu**
TORPAQ HÜQUQ MÜNASİBƏTLƏRİNİN SUBYEKTLƏRİ ..... 106

ƏMƏK HÜQUQU
**Əkbərli Ülkər Asif qızı**
**Qədimquliyev Ramil Eyyub oğlu**
MÜASİR DÖVRDƏ KONSTİTUSİON İSTİRAHƏT HÜQUQUNUN HƏYATA KEÇİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ HAQQINDA ..... 112

**Газвинова-Гасанзаде Эльмира Эльчин гызы**
РАСПРОСТРАНЕНИЕ ИСКУССТВЕННОГО ИНТЕЛЛЕКТА В ТРУДОВОМ ПРАВЕ ..... 119

**ISSN 2218-9130**

**Təsisçi:**
**ŞAHBAZ XUDUOĞLU**

**Baş redaktor:**
**hüquq üzrə fəlsəfə doktoru, dosent**
**HİKMƏT EYVAZOV**

**Redaktor və**
**kompüter tərtibatçısı:**
**hüquqşünas**
**ANAR ƏLİ**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydə alınmışdır. Şəhadətnamə № 0104-P83-41555

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 16 may 2014-cü il tarixli (protokol № 07-R) qərarı ilə Hüquq elmləri üzrə «Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısı»na daxil edilmişdir.

**BANK REKVİZİTLƏRİ:**
**Kapital Bank Bakı şəhər filialı**
**Kod: 200026; VÖEN: 9900003611**
**Müxbir hesabı: 0137010001944**
**S.W.I.F.T. BIK AIIBAZ 2X**
**Hesab № 11533050000**
**VÖEN: 1700145131**
**Valyuta hesabı: 333150100**

**Format: 60x84 1/8**
**Fiziki çap vərəqi: 25**
**Sifariş: (259) Tiraj: 500**
**Qiyməti: 4 manat**

**Qanun Nəşriyyatının ünvanı:**
**Nəsimi rayonu, Tbilisi prospekti, 76**
**Tel.: 431-16-62; 431-38-18**

QANUN

**ÜNVAN:**
Azərbaycan Respublikası,
Bakı, AZ 1102, Nəsimi rayonu,
Tbilisi prospekti, 76
**Tel.:** 431-16-62; 431-38-18
**Faks:** 431-38-18
**E-mail:** qanunhuquqjurnali@gmail.com
**www:** qanunjurnali.az

**Рощин Михаил Михайлович**
РОЛЬ СУДЕБНОЙ ПРАКТИКИ ПРИ РАССМОТРЕНИИ ОТДЕЛЬНЫХ КАТЕГОРИЙ СПОРОВ С УЧАСТИЕМ СПОРТСМЕНОВ И ТРЕНЕРОВ ........ 124

**Axundov Ruslan Natiq oğlu**
ƏMƏK HÜQUQUNDA MÜDDƏTLƏRİN HESABLANMASI QAYDASI HAQQINDA MƏSƏLƏYƏ DAİR ........ 131

**Paşalı Şəhriyar Faiq oğlu**
AZƏRBAYCAN RESPUBLİKASININ VƏ RUSİYA FEDERASİYASININ QANUNVERİCİLİYİNƏ GÖRƏ ƏMƏK HAQQININ NATURA FORMASINDA ÖDƏNİLMƏSİNİN MƏHDUDLAŞDIRILMASI ........ 138

**Пашаев Араз Надир оглу**
К ВОПРОСУ О СОДЕРЖАНИИ ТРУДОВОГО ДОГОВОРА О ДИСТАНЦИОННОЙ РАБОТЕ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ТРУДОВОГО ЗАКОНОДАТЕЛЬСТВА РОССИИ, КИРГИЗИИ, КАЗАХСТАНА И АЗЕРБАЙДЖАНА ........ 144

**<u>CİNAYƏT HÜQUQU VƏ KRİMİNOLOGİYA</u>**
**Мамедов Наиль Ибаят оглу**
НЕКОТОРЫЕ ВОПРОСЫ ОБ УГОЛОВНОЙ ОТВЕТСТВЕННОСТИ ЗА НАРУШЕНИЕ НЕПРИКОСНОВЕННОСТИ ЖИЛИЩА ........ 149

**Mürşüdov Rəşad Ramil oğlu**
MÜASİR CİNAYƏT HÜQUQUNDA EHTİYATSIZLIQ VƏ DOLAYI QƏSD ARASINDAKI SƏRHƏD: ŞÜURLU DAVRANIŞ ELEMENTİ VƏ MÜQAYİSƏLİ HÜQUQİ TƏHLİL ........ 154

**Ramazanov Zəfər Akif oğlu**
AMNİSTİYA AKTININ TƏTBİQ EDİLDİYİ ŞƏXSƏ MÜNASİBƏTDƏ CİNAYƏTLƏRİN MƏCMUSU ÜZRƏ QƏTİ CƏZANIN TƏYİNİ MƏSƏLƏLƏRİ ........ 160

**<u>CİNAYƏT PROSESİ VƏ KRİMİNALİSTİKA</u>**
**Rüstəmov Rauf Hüseyn oğlu**
**Musazadə Nərmin Rəşad qızı**
**Şirinova Nəzrin Elnur qızı**
CİNAYƏT-PROSESSUAL HÜQUQUN TƏKMİLLƏŞDİRİLMƏSİ KONTEKSTİNDƏ DÖVLƏT İTTİHAMÇISININ MÜSTƏQİL SUBYEKT KİMİ FORMALAŞMASI ........ 170

**Axundov Fuad Natiq oğlu**
HAKİMİN MÜSTƏQİLLİYİNƏ DAİR ƏSAS AVROPA STANDARTLARI ........ 181

**<u>GƏNC HÜQUQŞÜNASIN TRİBUNASI</u>**
**<u>İNSAN HÜQUQLARI</u>**
**Tanrıverdiyev Nahid İlham oğlu**
MÜASİR QLOBAL TRANSFORMASİYALAR FONUNDA AVROPA BİRLİYİNİN İNSAN HÜQUQLARI ARXİTEKTURASI: STRUKTUR BÖHRANLAR VƏ YENİ ÇAĞIRIŞLAR ........ 189

"QANUN" JURNALINA ELMİ MƏQALƏ TƏQDİM ETMƏK ÜÇÜN QOYULAN TƏLƏBLƏR .... 199

**QANUN**

**«Qanun»** elmi hüquq jurnalı 8 yanvar 1992-ci il tarixindən etbarən hər ay mütəmadi nəşr edilməkdədir. Jurnalın əsas məqsədi elmi nəşr olaraq demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, hüquq və qanunçuluğun təbliği, hüquq elminin inkişafı və vətəndaşların hüquqi maarifləndirilməsi işində yaxından iştirak etməkdir. Jurnalda tanınmış hüquqşünas alimlərin, doktorant və dissertantların, magistrantların, praktik hüquqşünasların, habelə müxtəlif sahələrdə çalışan mütəxəssis hüquqşünasların elmi və elmi-praktiki məqalələri dərc olunur.

**«Qanun» jurnalına «Qaya Mətbuat Yayımı» MMC (Tel.: 566-77-80), «Səma Mətbuat Yayımı» MMC (Tel.: 596-22-97; 5940959) və «Azərmətbuatyayımı» ASC (Tel.: 440-16-26; 440-27-85) şirkətləri vasitəsilə abunə yazıla bilərsiniz.**

**«Qanun»** elmi hüquq jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası rəyasət heyətinin 2010-cu il 30 aprel tarixli (protokol №10-R) qərarı ilə təsdiq olunmuş (2012-ci il 04 may tarixli (protokol №07-R), 2012-ci il 6 iyul tarixli (protokol №10-R), 2014-cü il 16 may tarixli (protokol №07-R) və 2015-ci il 13 mart tarixli (protokol №05-R) qərarları ilə əlavə və dəyişikliklər edilmişdir) "Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin Siyahısı"na daxil edilmişdir.

# REDAKSİYA HEYƏTİ:

**Rəhimov İlham Məmmədhəsən oğlu**
Hüquq üzrə elmlər doktoru, professor, Azərbaycan Respublikasının Əməkdar hüquqşünası

**Qasımov Alış Məmiş oğlu**
Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor

**Qəfərov Midhəd Seyidəhməd oğlu**
Bakı Dövlət Universitetinin Cinayət prosesi kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Cəfərov Zahid İsa oğlu**
Bakı Dövlət Universitetinin Əmək və ekologiya hüququ kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Dəmirçiyeva Məhəbbət Dəyirman qızı**
Bakı Dövlət Universitetinin Mülkü hüquq kafedrasının professoru, hüquq üzrə elmlər doktoru

**Lyubimov Aleksey Pavloviç**
hüquq elmləri doktoru, professor, Rusiya Elmlər Akademiyası Rəyasət Heyəti yanında Elmi Şuranın süni intellekt metodologiyası üzrə sədr müavini

**Kurennoy Aleksandr Mixayloviç**
M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Əmək hüququ kafedrasının müdiri, hüquq üzrə elmlər doktoru, professor, RF-in əməkdar hüquqşünası

**Zahidov Bəhram Saffan oğlu**
Hüquq üzrə elmlər doktoru, professor, Nyu-York Elmlər Akademiyasının üzvü

**Qurbanov Habil Surxay oğlu**
hüquq üzrə elmlər doktoru, professor, Elm və Təhsil Nazirliyinin Elmi təşkilatların birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədri, Avropa Humanitar Elmlər Akademiyasının həqiqi üzvü

**Eyvazov Hikmət Qismət oğlu (redaktor)**
hüquq üzrə fəlsəfə doktoru, dosent

**Məmmədov Zahid Fərrux oğlu**
Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi fəaliyyətin təşkili və idarə edilməsi departamentinin direktoru, iqtisad üzrə elmlər doktoru, professor

**Skaçkova Qalina Semyonovna**
Özəl ali təhsil müəssisəsi "Hüquq İnstitutu"nun (Sankt-Peterburq) Mülki hüquq və prosesi kafedrasının professoru, hüquq elmləri doktoru

**İmanlı Məhəmməd Nağı oğlu**
hüquq üzrə elmlər doktoru, professor

**Tomaşevski Kiril Leonidoviç**
V.Q. Timiryasov adına Kazan İnnovasiya Universitetinin Hüquq fakültəsinin elmi işlər üzrə dekan müavini, mülki və sahibkarlıq hüququ kafedrasının professoru, hüquq elmləri doktoru

 QANUN № 07 (381), 2026, s. 3-10

**İsmayılov Ayxan Rəhim oğlu,**
Bakı Dövlət Universitetinin Dövlət və hüquq nəzəriyyəsi və tarixi kafedrasının dissertantı
E-mail: ayxan.ismayilov.0101@mail.ru

**UOT 340**
**DOI: https://doi.org/10.30546/2218-9130.007.2026.9091**

# DÖVLƏTİN HÜQUQ SUBYEKTLİYİNİN XÜSUSİYYƏTİ

***Açar sözlər:*** *hüquq, subyektlik, dövlət, status, suverenlik, münasibətlər, qanun pozuntusu, funksiya, hərəkət, qabiliyyət.*

***Ключевые слова:*** *право, субъектность, государство, статус, суверенитет, отношения, деликт, функция, акт, способность.*

***Keywords:*** *law, subjectivity, state, status, sovereignty, relations, tort, function, act, ability.*

## 1. Dövlətin hüquq subyektliyinə dair nəzəri yanaşmalar

Hər bir tarixi dövrdə ictimai münasibətlərin iştirakçılarını ifadə etmək üçün “hüququn subyekti” anlayışı formalaşdırılmışdır. Bu baxımdan hüququn, xüsusilə beynəlxalq hüququn subyektlərinin dairəsinin həddindən artıq genişləndirilməsi düzgün hesab edilmir. Beynəlxalq hüquqşünaslar düzgün olaraq qeyd edirlər ki, beynəlxalq münasibətlərin iştirakçıları üçün “hüquq subyektliyinin ən mühüm göstəricisi siyasi müstəqillikdir” [10, s. 13]. Son illər fərdlərin hüquqi statusunun zənginləşməsinə baxmayaraq, tarixi inkişafın hazırkı mərhələsində yalnız dövlətlərin ilkin və tam beynəlxalq hüquq subyektliyinə malik olması mövqeyini dəstəkləyirik. “Beynəlxalq hüquqda hüquq subyektliyi müstəqil surətdə beynəlxalq hərəkətləri həyata keçirmək qabiliyyəti ilə yanaşı, həmçinin də fiziki şəxslərin malik olmadığı beynəlxalq hüquq normaları yaratmaq və onların yerinə yetirilməsini təmin etmək qabiliyyətini nəzərdə tutur” [7, s. 8].

Beynəlxalq hüquq subyektliyini ilk növbədə beynəlxalq hüquq münasibətlərinin iştirakçısı olmaq, beynəlxalq müqavilələri bağlamaq və onları yerinə yetirmək qabiliyyəti kimi başa düşmək lazımdır [8, s. 54]. Təsadüfi deyildir ki, tanınmış beynəlxalq hüquqşünas N.A.Uşakov beynəlxalq hüququn subyektlərini beynəlxalq hüquq normaları ilə müəyyən edilmiş hüquq və vəzifələrə malik olan beynəlxalq hüquq münasibətlərinin tərəfləri kimi müəyyən edir [9, s. 9].

Hələ yüz il bundan əvvəl alman hüquqşünası Georq Yellinek qeyd etmişdir ki, əgər dövlət hüququn subyektidirsə, o, yalnız hüquqi şəxs (korporasiya) kimi çıxış edə bilər [6, s. 192-193].

Dövlətin hüquq subyektliyinin xüsusiyyəti barədə tanınmış Azərbaycan hüquqşünaslarının mülahizələri də böyük əhəmiyyət kəsb edir. Belə ki, professor M.F.Məlikova yazır ki, “dövlət hüququn xüsusi subyektidir” [5, s. 229]. Professor L.H.Hüseynov isə qeyd edir ki, “dövlətlər ilkin və universal beynəlxalq-hüquqi subyektliyə malikdir” [3, s. 44]. Dövlətin hüquqi şəxslərə, eləcə də fərdlərə mülkiyyət hüququ əsasında məxsus ola bilməyən obyektlərə münasibətdə mülkiyyət hüququ vardır. Digər subyektlərə mülkiyyət hüququ əsasında məxsus ola bilməyən torpaq və digər təbii resurslar dövlət mülkiyyətinin obyektləri sayılırlar. Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 178.7-ci maddəsinə görə “sahibsiz daşınmaz əşyalar, habelə ictimai sular və becərilməyə yararsız torpaqlar, məsələn, qayalar, yüksək dağlar və onlardan çağlayan bulaqlar, habelə faydalı qazıntılar dövlətə mənsubdur” [1].

Dövlət üçün mülkiyyət hüququnun yaranması və xitamının xüsusi əsasları da müəyyən edilmişdir. Belə ki, Mülki Məcəllənin 203.4-cü maddəsinə görə “dövlət mülkiyyətində olan əmlak özəlləşdirmə haqqında qanunvericilikdə nəzərdə tutulmuş qaydada fiziki və hüquqi şəxslərin mülkiyyətinə özgəninkiləşdirilir” [1]. Eyni zamanda, həmin Məcəllənin 203.5-ci maddəsinə görə, “fiziki və hüquqi şəxslərin mülkiyyətində olan əmlakın dövlətin və cəmiyyətin ehtiyacları üçün özgəninkiləşdirilməsi Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsinin IV hissəsinə əsasən həyata keçirilir” [1].

Beləliklə, dövlətin hüquq qabiliyyətinin yuxarıda qeyd olunan xüsusiyyətləri bu hüquq subyektinin digərləri ilə müqayisədə özünəməxsusluğunu nümayiş etdirir. Beynəlxalq və mülki hüquqda dövlətin hüquq qabiliyyəti şübhə altına alına bilməz. Ona görə də az və ya çox məhdudiyyətlərlə dövlət həmişə həmin hüquq sahələrində hüquq qabiliyyətinə malik olmuşdur və uzun müddətdir ki, həmin hüquq sahələrində hüquq qabiliyyətli sayılır. Konstitusiya və inzibati hüquqda, xüsusən də birincisində tamamilə fərqli bir vəziyyət mövcuddur. Bunun səbəbi isə “dövlət – hüququn subyekti” konstruksiyasının konstitusiya hüququnda tətbiq olunmamasındadır. Bu baxımdan dövlətin ümumi və xüsusi hüquq sahələrində hüquq qabiliyyətini təhlil etmək zəruridir.

Öz funksiyalarını yerinə yetirmək üçün dövlət öz təsisatlarını yaratmaq, yenidən qurmaq və ləğv etmək qabiliyyətinə malikdir. Lakin bu zaman heç də bütün təsisatlar bərabər ölçüdə yenidən qurula və ya ləğv edilə bilməz. Belə ki, parlament və ədliyyə sistemi daimi fəaliyyət göstərmələri ilə fərqlənirlər. Müasir dövlətlərin əksəriyyətində parlamentlər mövcuddurlar ki, çünki onlar mahiyyət etibarilə xalqın dövlət qərarlarının qəbul edilməsində iştirak etdiyi yeganə təsisatdır. Parlamentin ləğv edilməsi xalqı bu qərarları qəbul etmək imkanından məhrum etmək demək olardı. Eyni şeyi ədliyyə sistemi haqqında da demək olar. Ədliyyə müstəqil və ya asılı ola bilər, lakin dövlətin mövcudluğunun istənilən dövründə onun mövcudluğu şübhə doğura bilməz. Ona görə də nə parlament, nə də məhkəmələr ləğv edilə bilməz; onlar olmadan nə siyasi, nə də hüquqi dövlət normal mövcudluğa qadir deyildir. Onlar istənilən dövlətin quruluşunun atributları sayılırlar və ya yalnız yenidən qurula bilərlər (deputatların sayını, parlamentin strukturunu dəyişdirməklə, məsələn, birpalatalı parlamenti ikipalatalı parlamentə çevirməklə və ya əksinə; hakimlər üçün yaş həddini artırmaqla və ya ümumən onu götürməklə, yeni məhkəmələrin təyin olunması ilə və s.).

Dövlətin icra-sərəncamverici funksiyalarının mütəmadi olaraq genişləndirilməsi və daralması səbəbindən inzibati və nəzarət təsisatları daha tez-tez yaradılır, ləğv edilir və transformasiya olunurlar. Hüquqi tənzimlənmənin əhatə dairəsinə daxil olanların dəyişdirilməsi nəticəsində yeni inzibati təsisatların yaradılması, mövcud olanların yenidən təşkili və ya köhnələrinin ləğvi zərurəti ortaya çıxır. Çünki onlar hüquq normalarını tətbiq edən başlıca subyektlərdir. İnzibati təsisatların çoxluğu, hüquqi tənzimləmə predmetlərinin müxtəlifliyi və daimi dəyişikliyi nəzarətedici təsisatların da mütəmadi dəyişikliyini ortaya çıxarır. Sonuncular qanunçuluğa riayət edilməsinin yoxlanılmasını həyata keçirirlər, bir sıra hallarda isə həm müxtəlif şəxslər tərəfindən hüquq normalarının realizə olunmasını, həm də inzibati orqanlar tərəfindən hüquq normalarının tətbiqinin məqsədəuyğunluğunu nəzarət altında saxlayırlar.

Konstitusiya hüququnda dövlətin hüquq qabiliyyəti öz ərazisini təşkil etmənin mümkünlüyünü, yəni özünün hüquq qaydasının fəaliyyət hüdudlarını müəyyən etməni də əhatə edir. Ərazi quruluşunun növündən asılı olaraq dövlətlərin hüquq qabiliyyəti müxtəlif olur. Belə ki, sadə unitar dövlətdə ərazi muxtariyyətləri yoxdur,

dövlətin ərazisi vahiddir və buna görə də vahid dövlət hüquq qaydası tətbiq olunur. Dövlət yalnız inzibati-ərazi vahidlikləri yaradır ki, bunlar da yalnız dövlətin müxtəlif hissələrində əhalinin idarə olunmasını optimallaşdırmaq məqsədinə xidmət edir.

Mürəkkəb unitar dövlətdə, yəni muxtar qurumları öz tərkibində birləşdirən bir dövlətdə və xüsusən də ərazisi tamamilə muxtar qurumlardan ibarət olan bir dövlətdə (İtaliya, İspaniya) muxtariyyətlər artıq inzibati-ərazi vahidləri sayılmırlar. Onlarda dövlətin özünün fəaliyyət qabiliyyətindən fərqli olaraq özlərinin məxsusi hüquq qabiliyyəti yaranır. Həmin hüquq qabiliyyətinin həcmi və məzmunu federasiya subyektinin hüquq qabiliyyətindən fərqli olaraq əhəmiyyətli dərəcədə məhduddur və bu, həmişə dövlətin konstitusiyasında və muxtar qurumun konstitusiyasında mütləq şəkildə təsbit olunur.

Muxtar qurumların hüququn subyektlərinə çevrilməsi ilə dövlət müəyyən yurisdiksiya sahələrində özünün hüquq qabiliyyətini yenidən nəzərdən keçirmək məcburiyyətində qalır. Bir tərəfdən mürəkkəb unitar və regionalist dövlətlərdə ərazi quruluşu sahəsində hüquq qabiliyyətinin realizəsi müvafiq muxtar qurumlara hüquq qabiliyyətinin verildiyi yurisdiksiya sferaları üzrə onların hüquq qabiliyyətinin məhdudlaşdırılması ilə əlaqələndirilir. Muxtar qurumlar özlərinin hüquqyaratma və hüquqtətbiqi təsisatlarını yaradır və bu təsisatlar vasitəsilə özlərinin hüquq qabiliyyətini realizə edirlər. Digər tərəfdən, dövlətin hüquq qabiliyyəti eyni anda genişləndirilir, çünki muxtar qurumun fəaliyyətini nəzarətdə saxlamaq ehtiyacı yaranır ki, adətən bu məsələ ilə muxtar quruma təyin olunmuş hökumət komissarı məşğul olur.

Federativ dövlətdə dövlətin hüquq qabiliyyətinin daha da böyük şəkildə yenidən bölüşdürülməsi baş verir. Ona görə ki, birincisi, ittifaq dövləti federasiyanın özündən və birlikdə ittifaq dövlətini təşkil edən federasiya subyektlərindən ibarət mürəkkəb bir dövlətdir; ikincisi, federasiya subyektlərinin səlahiyyət predmetləri dövlət əhəmiyyətli sayılırlar.

**2. Dövlətin hüquq qabiliyyəti**

Hüququn subyekti kimi dövlət fərdi deyil, kollektiv hüquqi subyektdir. "Dövlət məhz məqsədli (məhdud) hüquq qabiliyyətinə malikdir. Ona görə ki, dövlətin əsas məqsədi bütün cəmiyyətin mənafeyi, ümummilli ictimai mənafe ilə bağlıdır" [2, s. 598]. Fərddən fərqli olaraq, hüququn kollektiv subyekti mütləq şəkildə öz iradəsini formalaşdıran və onu ifadə edən təsisatlara ehtiyac duyur. Dövlət təsisatları fərqli struktura və formaya malikdirlər. Hər şeydən öncə onların arasında dövlətin hüquq qabiliyyətinin bilavasitə həyata keçirdiyi, özünün funksiyalarının yerinə yetirdiyi təsisatlar, yəni adətən dövlət orqanları adlandırılan qurumlar xüsusilə fərqlənirlər. Dövlət funksiyalarını həyata keçirən təsisatları (dövlət başçısı, parlament, məhkəmə orqanları, inzibati qurumlar – bir sözlə, dövlət orqanları adlandırılanlar), sosial mədəni təsisatları (xəstəxanalar, muzeylər və s.) və nəhayət, dövlət müəssisələri, yəni istehsalla məşğul olan hüquqi şəxsləri (zavodlar, kombinatlar və s.) xüsusilə ayırmaq lazımdır. Onların hamısı fərqli yollarla olsa da, dövlətə bağlıdırlar: parlament, məhkəmələr və digərləri dövlətin daxili təşkilati strukturunun elementləridir (onu digər təşkilatlardan fərqləndirən xüsusi qurumlardır), ona görə ki, hüquqi cəhətdən onlar dövlətdən ayrı deyildirlər; sosial-mədəni təsisatlar və müəssisələr isə dövlət tərəfindən yaradılan və müəyyən hüquqi müstəqilliyə malik olan hüquq subyektləridir.

Bu mənada dövlətin öz funksiyalarının həyata keçirdiyi dövlət təsisatlarının hüquqi vəziyyəti ilə bağlı sual ortaya çıxır. Qeyd etmək lazımdır ki, həmin təsisatlar dövlətə öz iradəsini formalaşdırmaq və ifadə etmək üçün lazımdır. Lakin onların dövlətin vahid iradəsindən fərqli olan öz iradələri yoxdur. Ona görə də onları

dövlətlə yanaşı, hüququn müstəqil subyektləri kimi hesab etmək üçün heç bir əsas mövcud deyildir. Dövlət onlara səlahiyyətlər verir, yəni öz mülahizələrinə əsasən yenidən baxıla bilməyən (artırıla, dəyişdirilə və ya azaldıla bilməyən) və yalnız dövlətin özünün yenidən baxmaq hüququna malik olan dəqiq müəyyən edilmiş hüquq və vəzifələrlə təmin edir. Dövlət orqanları dövlət quruluşunun tərkib hissələri sayılırlar. Onların dövlətin maraqlarından fərqli heç bir maraqları ola bilməz və buna görə də dövlət orqanları müstəqil hüquq subyektləri sayıla bilməzlər. Onlar dövlətə münasibətdə nə hüquqlara, nə də vəzifələrə malik ola bilməzlər, çünki onların özləri dövlətin özünün konkret təcəssümündə öz ifadələrini tapırlar.

Beləliklə, dövlət təsisatları müstəqil hüquq qabiliyyətinə malik olmayan təşkilat hesab edilirlər. Onlar hüquqi cəhətdən dövlətin özündən ayrılmazdırlar və fərqli deyillər, yəni onun təcəssümüdürlər. Bununla əlaqədar dövlət təsisatları tərəfindən dövlətin özünün təmsil olunması mümkün deyildir, çünki bunun üçün iki hüquq subyekti – nümayəndə və təmsil olunan subyekt tələb olunur. Dövlət öz hüquq qabiliyyətini özünün təsisatları vasitəsilə realizə etmədən və ya öz funksiyalarını yerinə yetirmədən mövcud olmaq iqtidarında deyildir. Hüququn subyekti olaraq dövlət özünün funksiyalarını və hüquq qabiliyyətini öz təsisatları vasitəsilə həyata keçirir və buna görə də o, həm də fəaliyyət qabiliyyətli şəxs sayılır.

**3. Dövlətin fəaliyyət qabiliyyəti**

İndi isə müvafiq dövlətin fəaliyyət qabiliyyətli, qismən fəaliyyət qabiliyyətli və ya fəaliyyət qabiliyyəti olmayan hesab olunmasını müəyyən etməyə imkan verən bəzi şərtlərə (meyarlara) müraciət edək. Birincisi, istənilən dövlət özünün iradəsini formalaşdıran və bu iradəni ifadə edən təsisatlara ehtiyac duyur. Buna görə də hər hansı bir dövlətdə dövlət təsisatlarının növləri, səlahiyyətləri və öz aralarında qarşılıqlı fəaliyyətləri Konstitusiyanın nizamlanma predmetlərindən biri olaraq qalır ki, bu da təsadüfi deyildir. Bunlar olmadan dövlət öz hüquq qabiliyyətini realizə etməyə, öz funksiyalarını həyata keçirməyə qadir deyildir. Beləliklə, dövlətdə inkişaf etmiş dövlət təsisatları, ilk növbədə, hüquqtətbiqetmə strukturlarının sistemi olmalıdır ki, onların da hər biri digər qurumların səlahiyyətlərini təkrarlamayan, özünün dəqiq şəkildə müəyyən edilmiş səlahiyyətlərinə malikdir. Bu təsisatlar məcmu halında vətəndaşların və digər şəxslərin bir-biri ilə və onların dövlətlə qarşılıqlı hüquqi əlaqələrini təşkil etməlidirlər.

Bununla belə, dövlətin fəaliyyət qabiliyyətli olması üçün yalnız hələ təşkilati meyarların mövcudluğu kifayət etmir. Çünki təsisatlar ümumi iradəni və ya ümumi maraqları ifadə etməyən hüquqi qərarlar qəbul edə bilərlər və bu da nəticədə vətəndaşlar və digər şəxslər tərəfindən onların realizəsi zamanı ciddi maneələrlə üzləşməsinə gətirib çıxara bilər. Dövlət qərarlarında ümumi iradənin təcəssüm tapması üçün ilk növbədə peşəkar hazırlıq tələb olunur. Lakin səriştə səviyyəsi dövlət təsisatlarına deyil, yalnız fərdlərə (dövlətdə vəzifəli şəxslərə) münasibətdə müəyyən edilə bilər ki, bu da dövlət təsisatları ilə onların vəzifəli şəxsləri arasında fərq qoymağı zəruri edir.

Dövlətin öz orqanlarına münasibəti haqqında məsələni çözmək üçün həmin orqanlar haqqında ikili mənada danışmağın mümkün olduğunu qeyd edə bilərik. Mücərrəd təsisatlar kimi bu orqanları onların təcəssüm olunduğu canlı şəxslərdən fərqləndirmək lazımdır. Bu fərq yalnız kollegial strukturlarda əyani şəkildə özünü göstərir, lakin o, ayrı-ayrı orqanlara münasibətdə də tətbiq edilir. Birinci mənada orqan fəaliyyətdə olan dövlətin yalnız təzahürlərindən biridir və buna görə də həmin dövlətə nə hüququn subyekti qismində, nə də xüsusi iradə keyfiyyətində qarşı qoyula bilməz. Lakin həmin orqanı təşkil edən və ya onun tərkib hissəsi olan fərd (şəxs) şübhəsiz ki,

müəyyən hüquqi münasibətlərlə dövlətə bağlıdır. İstənilən dövlət orqanında mücərrəd təsisatın və fərdi insan şəxsiyyətinin birləşməsi baş verir ki, bu da dövlət təsisatının tək bir vəzifəli şəxsdən (əgər orqan kollegial deyildirsə, məsələn, dövlət başçısı) və ya vəzifəli şəxslərin məcmusundan (əgər orqan kollektiv səciyyə daşıyırsa, yəni idarəetməni əksəriyyət həyata keçirirsə) ibarət olduğunu iddia etməyə əsas verir.

Vəzifəli şəxslərin dövlət funksiyalarının həyata keçirilməsinə peşəkar hazırlıq səviyyəsi müxtəlif üsullarla qiymətləndirilə bilər: ixtisas imtahanları ilə, attestasiyadan keçirilməklə, sertifikatlaşdırma ilə, müsabiqə seçimi ilə, xüsusi təhsilin mövcudluğu ilə, iş stajı ilə və s. Hesab olunur ki, yalnız xüsusi biliklərin mövcudluğu şərti ilə vəzifəli şəxslərdən təkcə rəsmi olaraq dövlət funksiyalarını həyata keçirmək deyil, həm də qəbul etdikləri hüquqi qərarlarda fərdi iradə və maraqların uzlaşdırılmasına layiq olmaq gözləntisi ola bilər.

**4. Dövlətin delikt qabiliyyəti**

Dövlətin fəaliyyət qabiliyyəti başlıca olaraq hüquqauyğun hərəkətlərin edilməsində özünü ifadə edir ki, sonuncular da (yəni hüquqauyğun hərəkətlər) dövlətin hüquq qabiliyyətinin həcmi və məzmunu baxımından çoxsaylıdırlar. Bununla belə, dövlət tərəfindən həmişə hüquq pozuntularının və sui-istifadə hərəkətlərinin törədilməsi mümkündür. Ona görə də dövlətin öz etdiyi hərəkətlərə görə hüquqi məsuliyyət haqqında məsələ ortaya çıxır ki, bu da dövlətin delikt qabiliyyətinin müzakirəsini şərtləndirir.

Delikt qabiliyyəti dövlətin hüquqi məsuliyyət daşımaq imkanını ifadə edən hüquqi vasitədir. Qeyri-demokratik dövlət həmişə özünün vəzifəli şəxslərinin üzərinə hüquqi məsuliyyət qoymaqla, eləcə də məsuliyyətə cəlb edilmənin müstəsna şərtlərini və mürəkkəb proseduru müəyyən etməklə (məsələn, dövlətin yalnız qanunla nəzərdə tutulmuş hallarda hüquqi məsuliyyətin subyekti sayıldığına dair göstəriş vasitəsilə) hüquqi məsuliyyətdən yayınmağa çalışır. Demokratik dövlət isə əksinə olaraq, nə öz vətəndaşları, nə də digər dövlətlər də daxil olmaqla hüququn digər subyektləri qarşısında hüquqi məsuliyyətdən yayınmır və bu məsuliyyəti özünün vəzifəli şəxslərinin üzərinə qoymur. Vəzifəli şəxslərin hərəkətlərinə (hərəkətsizliyinə) görə dövlət həmişə özü hüquqi məsuliyyətin subyekti sayılır. Və bu da tamamilə məntiqlidir. Ona görə ki, vəzifəli şəxsi xidmətə qəbul etməklə dövlət eyni zamanda onların qeyri-qanuni və vicdansız hərəkətlərinin riskini öz üzərinə götürür. Əgər vəzifəli şəxs öz səlahiyyətlərini aşarsa və ya bu səlahiyyətlərdən sui-istifadə edərsə və nəticə etibarilə bu hansısa zərərin vurulmasına səbəb olarsa, o zaman həmin şəxs dövlətin nümayəndəsi kimi deyil, dövlət tərəfindən işə götürülmüş qulluqçu kimi çıxış etdiyindən onun etdiyi hüquqi hərəkətlər nümayəndəlik münasibətindən fərqli olaraq dövlətin özünün hərəkətləri kimi qiymətləndirilir. Buna görə də dövlətin vəzifəli şəxsləri deyil, onun özü fiziki və hüquqi şəxslər qarşısında məsuliyyət daşıyır.

N.H.Mehdiyev qeyd edir ki, "Dövlətin dövlətlər və fərdlər qarşısında məsuliyyətində fərqlər mövcuddur. Birinci halda söhbət siyasi məsuliyyətdən gedirsə, ikinci halda söhbət maddi məsuliyyətdən gedir [4, s. 37].

Dövlət yalnız vurulan zərəri, yəni əmlak itkisini ödəməklə məsul deyildir. O, həm də şəxsə mənəvi zərər vurduğu halda, məsələn, əgər şəxs qanunsuz olaraq cinayət məsuliyyətinə cəlb olunubsa, mənəvi zərəri də kompensasiya etməlidir. Bundan başqa, dövlət yalnız öz qulluqçularının qeyri-qanuni və sui-istifadə hərəkətlərinə görə deyil, həm də qanuna və ya qanunqüvvəli akta əsaslanan hərəkətlərə görə, yəni nəticəsində əmlak zərərinin vurulduğu hüquqauyğun hərəkətlərinə görə də (məsələn, milliləşdirmə, rekvizisiya hallarında) məsuliyyət daşıyır.

Bununla belə, dövlət özünün vəzifəli şəxslərinə onlara verilmiş səlahiyyət çərçivəsindən

kənara çıxmaq, yəni səlahiyyətlərini aşmaq və ya onlardan sui-istifadə etməklə əlaqədar onları müvəkkil etmədiyindən sonradan dövlət həmin vəzifəli şəxsə münasibətdə məcburi tədbirlər tətbiq edə bilər, o cümlədən zərərçəkmişə ödədilən zərərin məbləğini onlardan geri ala bilər. Hüququn subyektləri qeyri-qanuni və ya pis niyyətlə hərəkət edən vəzifəli şəxslərdən bilavasitə olaraq zərərin ödənilməsini tələb etməməlidirlər. Bu cür hərəkətlərin riski hüququn subyekti kimi dövlətin üzərinə qoyulur, çünki tam həcmdə və operativ şəkildə ödənişin təmin olunması üçün kifayət qədər vəsaiti olan və onları işə götürən onun özüdür. Bundan sonra dövlətin özü də artıq reqres qaydasında özünün vəzifəli şəxslərindən zərərin ödənilməsi ilə əlaqədar çəkdiyi məsrəfləri geri almaq və həmçinin də onları hüquqi məsuliyyətin digər növlərinə cəlb etmək hüququna malikdir.

Ən əvvəl hesab edirik ki, digər mülki hüquq subyektlərindən fərqli olaraq Azərbaycan dövlətinin və bələdiyyələrin mülki-hüquqi münasibətlərdə hüquqi statusunu və iştirakını tənzimləyən müddəaların yalnız iki hüquqi norma (Mülki Məcəllənin 43.3-cü və 43.4-cü maddələri) ilə tənzimlənməsi kifayət qədər məhdud hesab edilməli və müvafiq münasibətlərin inkişaf etməsi baxımından mövcud qanunvericilik tərəfindən bu məsələyə əlavə diqqətin yetirilməsi labüddür. Belə ki, Mülki Məcəllənin 43.4-cü maddəsinə uyğun olaraq bələdiyyələr hüquq münasibətlərində digər hüquqi şəxslər kimi iştirak edirlər. Bu zaman bələdiyyənin hüquq və vəzifələri onun hüquqi şəxs sayılmayan orqanları tərəfindən yerinə yetirilir [1].

**5. Nəticə**

Dövlət ümumi hüququn əsas subyekti kimi hakimiyyət səlahiyyətlərinə malikdir və xüsusi-hüquq sahəsində ayrıca bir hüquq subyekti qismində çıxış edərkən həmin xüsusiyyəti saxlayır. Bu xüsusiyyət dövlətin digər hüquq sübyektlərdən fərqli olaraq tam suveren olması ilə izah edilir. Bu "müstəsna status" dövlətin suverenlik anlayışı ilə əhatə olunan əlamətlərə malik olmasında özünü büruzə verir.

Dövlətin suverenlik əlaməti onun mülki-hüquqi münasibətlər sahəsində özünəməxsus yer tutmasına səbəb olur. Belə ki, dövlət:

- özü bu sahədə bütün digər iştirakçılar üçün məcburi olan normativ hüquqi aktlar vasitəsilə məcburi qaydalar müəyyənləşdirir;
- digər iştirakçıların iradəsindən asılı olmayaraq mülki-hüquqi münasibətləri əmələ gətirən hüquqi aktlar qəbul edir;
- mülki-hüquqi münasibətlərdə iştirak etdiyi halda da hakimiyyət funksiyasını saxlayır;
- immunitetindən istifadə edir.

Dövlət suverenliyinin müstəsnalığı ondan ibarətdir ki, onun həyata keçirilməsi federasiya subyektlərindən, muxtar qurumlardan, bələdiyyələrdən, hüquqi şəxslərdən asılı olmayaraq dövlət tərəfindən həyata keçirilir. Xüsusən də, məhz bu məsələdə dövlətin göstərilən subyektlərlə müqayisədəki hüquq subyektliyinin özünəməxsusluğu ifadə olunur. Sadalanan subyektlər onların konstitusiyalarında, nizamnamələrində, daxili əmək və təhsil qaydalarında, eləcə də digər hüquqi formalarda təsbit olunmuş hüquqi qayda müəyyən etmək hüququna malikdirlər. Lakin bu imkan heç zaman istisna sayılmır, çünki o, həmişə dövlətin hüquq qaydası ilə məhdudlaşır. Dövlət özü həmin hüquq subyektlərini hansı predmetlər üzrə və hansı həcmdə hüquqyaradıcılığının həyata keçirilməsini müəyyənləşdirir. Başqa sözlə deyilsə, bu subyektlər suverenliyə malik deyillər, onların hüquqi qaydası dövlətin hüquqi qaydasına tabedir və ondan törəmədir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Mülki Məcəlləsi // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4, I kitab, maddə 250.
2. Allahverdiyev S.S. Azərbaycan Respublikasının mülki hüquq kursu. I cild. (II nəşr). – Bakı: Digesta, – 2008. – 944 s.
3. Hüseynov L.H. Beynəlxalq hüquq: Dərslik. – Bakı: Qanun, – 2012. – 368 s.
4. Mehdiyev N.H. İnsan hüquqlarının pozulması sahəsində dövlətlərin məsuliyyəti // – Bakı: Bakı Universitetinin Xəbərləri. Sosial-siyasi elmlər seriyası, – 2019. №1, – s. 29-39.
5. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. – Bakı: Maarif, – 1979. – 299 s.
6. Еллинек Г. Общее учение о государстве. – СПб.: – Юрид. центр Пресс, – 2004. – 752 с.
7. Каширкина А.А. Тенденции развития международной правосубъектности. Автореф. дис... канд. юрид. наук. – М., – 2004, – 31 с.
8. Никифоров В.А., Никифоров С.В. Международная правосубъектность в «новых политических пространствах»: историко-концептуальный анализ проблемы // Ученые записки Орловского государственного ун-та, – 2018. №4, – с. 53-56.
9. Ушаков Н.А. Международное право: Учебник. – М: Юрист, – 2000, – 304 с.
10. Фельдман Д.И., Курдюков Г.И. Основные тенденции развития международной правосубъектности. – Казань: Изд-во Казан. ун-та, – 1974. – 166 с.

**Исмаилов Айхан Рахим оглу,**
диссертант кафедры теории и истории государства и права
Бакинского государственного университета

## ОСОБЕННОСТИ ПРАВОСУБЪЕКТНОСТИ ГОСУДАРСТВА

### РЕЗЮМЕ

В статье отмечается, что правосубъектность государства, по сравнению с правосубъектностью иных субъектов права, обладает уникальным характером. И хотя некоторые общие положения относительно правосубъектности государства закреплены в международном и гражданском праве, однако в конституционном и административном праве имеются пробелы по данному вопросу. Основная причина этого заключается в том, что в конституционном праве не применяется конструкция «государство – субъект права».

В связи с этим в статье проводится углубленный анализ правосубъектности государства в отраслях публичного и частного права. Отмечается, что государство, как главный субъект публичного права, обладает властными полномочиями и сохраняет эту особенность, действуя как отдельный субъект права в сфере частного права. Эта особенность объясняется тем, что государство, в отличие от других субъектов права, является полностью суверенным. Этот «исключительный статус» проявляется в том, что государство обладает признаками, охватываемыми понятием суверенитета. Признак суверенитета государства обуславливает его уникальное место в сфере правовых отношений. В частности, государство: само определяет обязательные нормы посредством нормативно-правовых актов, которые являются обязательными для всех других участников этой сферы; принимает правовые акты, формирующие правовые отношения, независимо от воли других участников; сохраняет функцию власти даже при участии в гражданско-правовых отношениях; использует свой иммунитет.

**Ismayilov Aykhan Rahim,**
Candidate for degree, Department of Theory
and History of State and Law, Baku State University

## CHARACTERISTICS OF STATE LEGAL SUBJECTIVITY

### SUMMARY

The article notes that compared to the legal subjectivity of other legal entities, the legal subjectivity of the state is unique. Although some general provisions regarding the legal subjectivity of the state are enshrined in international and civil law, constitutional and administrative law retain gaps on this issue. The main reason for this is that constitutional law does not apply the concept of "state as a legal entity". Therefore, the article provides an in-depth analysis of the legal subjectivity of the state in both public and private law.

It is noted that the state, as the primary legal entity under public law, possesses governmental powers and retains this characteristic while acting as a separate legal entity in the sphere of private law. This unique characteristic is explained by the fact that the state, unlike other legal entities, is completely sovereign. This "exceptional status" is manifested in the fact that the state possesses the attributes encompassed by the concept of sovereignty. The attribute of state sovereignty determines its unique place in the sphere of legal relations. Thus, the state: itself determines mandatory norms through normative legal acts that are mandatory for all other participants in this sphere; adopts legal acts that form legal relations, regardless of the will of other participants; retains the function of authority even when participating in civil law relations; uses its immunity.

**Redaksiyaya daxilolma tarixi: 07.07.2026**
**Təkrar işlənməyə göndərilmə tarixi: 20.07.2026**
**Çapa qəbul olunma tarixi: 23.07.2026**